Azərbaycan Kardiologiya Cəmiyyəti

**AZƏRBAYCAN KARDİOLOGİYA CƏMİYYƏTİ**

**AZ 1075,Azərbaycan Respublikası,Bakı şəhəri,Nəriman Nərimanov rayonu, Əhməd Rəcəbli prospekti 156, Aynalı Plaza, 4-cü mərtəbə.**

**www.akc.az; cardiojournal.az; E-mail: info@akc.az**

# *Dr.Əli Əkbərovun xatirəsinə həsr olunmuş gənc kardioloqlar arasında kliniki hal yarışması*

Hər ilki ənənəyə uyğun olaraq, bu il də Azərbaycan Kardiologiya Cəmiyyətinin XI Milli Konqresi çərçivəsində Dr. Əli Əkbərovun xatirəsinə həsr olunmuş gənc kardioloqlar arasında klinik hal müsabiqəsinə klinik hal təqdimatlarının qəbulu açıq elan edilir.

**Klinik hal təqdimatı aşağıdakı qaydalara uyğun olaraq tərtib olunmalıdır**:

**1.** Kliniki hal təqdimatı Azərbaycan dilində hazırlanmalı və mətnin həcmi **300** sözdən artıq olmamalıdır. Simvolların məsləhət görülən ölçüləri: **“Times New Roman”, 12, 1 sətrlik interval ilə.**

2. İlkin olaraq klinik halın adı, müəlliflər və əlaqə məlumatları göstərilməlidir.
   **Klinik halın adı:**
   **Müəllif:**
   **Müəssisənin adı:**
   **Ünvan:**
   **Əlaqə: tel və e-mail.**

**3.** Klinik hal giriş, klinik hal, müzakirə, açar sözlər (2-3), öyrədici məsələlər ardıcıllığı ilə tərtib olunmalıdır. **2-3 öyrədici məsələ təqdim edilməli və hər biri 2 cümlədən uzun olmamalıdır.**

4. Təqdimat olunan klinik hal patologiyanın az rastlanması, müayinə və ya müalicə zamanı qarşılaşılan qeyri-adi yönlər baxımından fərqlənməlidir.

5. Foto və ya video materialların keyfiyyətinə xüsusi diqqət yetirilməlidir. Bu materiallar **JPEG, AVI və ya DICOM formatında olmalıdır**. Klinik halların dəyərləndirilməsi istifadə olunan parametrlərdən birinin də materialların keyfiyyəti olduğu nəzərdə tutulmalıdır. Mobil telefon və ya bənzər cihazlarla əldə olunmuş keyfiyyəti yetərli olmayan video materiallar dəyərləndirilməyəcək. Foto və video materialda xəstənin şəxsi məlumatlarına olmamasına, anonimliyə diqqət yetirilməlidir.

6. Mətndə xəstənin adı-soyadı, həmçinin klinikanın adının olmamasına diqqət yetirilməlidir.

8. Abreviaturalardan istifadə edilməməlidir.

9. Ədəbiyyat aşağıdakı formatda göstərilməlidir:

Schroeder S, Baumbach A, Mahrholdt H. The impact of untreated coronary dissections on the acute and long-term outcome after intravascular ultrasound guided PTCA. Eur Heart J 2000; 21:137-145.

10. Daha əvvəl AKC konqreslərində təqdim olunmuş, jurnalda çap olunmuş klinik hallar yarışmaya qəbul olunmayacaq.

11. Hər bir həkim tərəfindən maksimum 3 kliniki hal təqdim oluna bilər.

12. Kliniki hallar **20.11.2022** tarixinə qədər göndərilməlidir. Bu tarixdən sonra təqdim olunmuş kliniki hallar dəyərləndirilməyəcəkdir.

13. Bütün kliniki hallar 01.12.2022 tarixinə qədər ilkin formada dəyərləndiriləcək və kliniki halın tibbi əhəmiyyəti, təqdimatın hazırlanması və foto-video materialın keyfiyyəti olmaq üzərə **3 parametrə əsasən ən yaxşı göstəriciyə malik 5 kliniki hal seçiləcək**.
14. Klinik hallar, həmçinin əlaqəli foto-video material congress@akc.az ünvanına göndərilməlidir. Elektron ünvana kliniki hal göndərildiyi halda **mövzu yerində "Kliniki hal" yazılmalıdır.** Klinik hal seçildiyi halda Slayd Prezentasiyası hazırlanmalıdır. Maksimum 9-10 slayd:
1. Titul Slayd: Klinik halın adı, məruzəçinin adı, soyadı, işlədiyi müəssisənin adı, məruzə tarixi, məruzənin keçirildiyi yer.
2. Giriş.
3-5. Klinik halın təqdimatı.
6-7. Müzakirə.
8. Öyrədici məqamlar (çatdırılacaq mesajlar)
9. Ədəbiyyat:

**Əlaqə nömrəsi: 050 207-09-45**

**Hörmətlə:**
**Azərbaycan Kardiologiya Cəmiyyətinin Sədri**
**Ü.Rəhimov**